# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№377/4** **13 iyun 2025-ci il**

## Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat şəraitində mühasiblərin və auditorların öhdəlikləri və məsuliyyətləri üzrə hüquqi aktların layihələrinə dair təkliflər barədə

"Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına" (2021-2030-cu illər) uyğun olaraq və Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.1.1.3-cü "Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat şəraitində mühasiblərin və auditorların öhdəliklərinə və məsuliyyətlərinə dair hüquqi aktların qəbul edilməsi məqsədilə qanunvercilik aktlarına dəyişikliklər edilməsi üçün müvafiq layihələrin hazırlanması və kompleks tədbirlərin həyata keçirilməsi" bəndinin icrasının təmin edilməsi məqsədilə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Dayanıqlı inkişaf və yaşıl iqtisadiyyat şəraitində mühasiblərin və auditorların öhdəlikləri və məsuliyyətləri üzrə hüquqi aktların layihələrinə dair təkliflər bəyənilsin (əlavə olunur).
2. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, bir ay müddətində Azərbaycan Respublikasının qanunvericiliyinə "IFRS S1: Dayanıqlılıqla bağlı maliyyə məlumatlarının açıqlanmasına dair ümumi tələblər" və "IFRS S2: İqlimlə bağlı açıqlamalar" Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiqi, bu sahədə mühasiblərin vəzifələri və məsuliyyətləri barədə müvafiq dəyişikliyin edilməsi ilə əlaqədar Azərbaycan Raspublikasının Maliyyə Nazirliyinə təkliflərin layihəsinin hazırlanmasını və Palatanın rəhbərliyinə təqdim olunmasını təmin etsin.
3. Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinə (E.İbrahimov) və Sədrin elmi-metodik məsələlər üzrə müşavirinə (N.Talıbov) tapşırılsın ki, bir ay müddətində "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa "ISSA 5000: Dayanıqlılıq hesabatları üzrə təminat tapşırıqları üçün ümumi tələblər" Beynəlxalq Audit Standartının tətbiqi, bu sahədə auditorların vəzifələri və məsuliyyətləri barədə dəyişikliyin edilməsi üzrə müvafiq layihələrin hazırlanması və Palatanın rəhbərliyinə təqdim olunmasını təmin etsinlər.
4. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

Şuranın sədri *Təli ilə düzdür* Vahid Novruzov

Azərbaycan Respublikası Auditorlar Palatası · Chamber of Auditors of Azerbaijan Republic · Ümumi şöbə